OSCE

# Organization for Security and Co-operation in Europe
# Media Azadlığı üzrə Nümayəndə
# Miklos Xaraşti

## Azərbaycana Qiymətləndirilmə Səfəri

### Muşahidələr və Tövsiyələr

11-15 Aprel 2005-ci il tarixində ATƏT-in Mətbuat Azadlığı üzrə Nümayəndəsi Mikloş Xaraşti, müşavir Aleksander İvanko və Araşdırmalar üzrə Əməkdaş Ana Karlsrayter ilə birlikdə Azərbaycana səfər etmişdir. Səfər Azərbaycan Hökümətinin dəvəti nəticəsində mümkün olmuş və xarici İşlər Nazirliyi və ATƏT-in Bakı Ofisi tərəfindən hazırlanmışdır. Səfərin məqsədi media azadlığın hazırkı səviyəsini öyrənmək və onun ATƏT öhdəliklərinə daha da uyğunlaşdırılması üçün hökümət nümayəndələrinə tövsiyələr təqdim etməkdən ibarət idi. Nümayəndə, onun səfəri zamanı Azərbaycan Hökümətinin əməkdaş yanaşmasını yüksək qiymətləndirir. Hesabat ATƏT-in Bakı Ofisinin köməyi ilə hazırlanıb.

Nümayəndə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul olunmuşdur.

O, eyni zamanda aşağıda adı-çəkilən şəxslərlə danışıqlar aparmışdir:

- Xarici İşlər Naziri Elmar Məmmədyarov;
- Ədliyyə Naziri Fikrət Məmmədov;
- Daxili İşlər Naziri Ramil Üsubov;
- Baş Prokuror Zakir Qaralov;
- Prezident Aparatının İctimai-Siyasi Şöbəsinin rəhbəri Əli Həsənov;
- Milli Təhlükzsizlik Nazirinin Müavini Fuad İsgəndərov;
- Parlamentin üzvləri və Spiker Murtuz Aləsgərov;
- Bir sıra digər yüksək rütbəli Hökümət Nümayəndələri;
- Jurnalistlər, redaktorlar və həm çap eləcə də müxtəlif elektron KİV nümayəndəiləri;
- Yerli və beynəlxalq qeyri-hökümət təşkilatlarının nümayəndələri;
- Xarici diplomatlar;

ATƏT Nümayəndəsi ATƏT – in Bakı Ofisi tərəfindən təşkil edilmiş tezliklərin lisenziyalaşdırılması üzrə bir günlük dəyirmi masada iştirak etmişdir.

# *Xülasə*

Qiymətləndirilmə səfərinin əvvəlcədən razılaşdırılıb hazırlanmasına baxmayaraq, tanınmış redaktor və jurnalist Elmar Hüseynovun qətli Nümayəndənin ölkədə olduğu müddətdə diqqət mərkəzinə çevrildi. Bu hadisə dünyanın diqqətini cəlb etdi və ölkədə mətbuat məsələlərini beynəlxalq nəzarət altına qoydu.

Bu cinayət Prezident tərəfindən qəti şəkildə pisləndi. Cinayətin Gürcüstan vətəndaşları tərəfindən törədildiyi müəyyən edilərək, işin həll olunması bəyan edildi. Buna baxmayaraq, faktiki olaraq təhqiqat, şübhələr, versiyalar və ya dəllilər barədə ictimaiyyətə **məhdud məlumat** verilirdi.

Mülki qaydada yüksək cərimələrlə cəzalandırılan diffamasiya halları Azərbaycanın Cinayət Məcəlləsində də hələ də qanun olaraq qalır və bu iki faktor jurnalistikada özünü senzura iqliminin yaranmasına gətirib çıxarıb. Bu ilin mart ayında Hüseynovun qətlindən sonra məmurlar tərəfindən jurnalistlər və ya mətbuat nəşrlərinə qarşı **cinayət və mülki qaydada iddiaların qaldırılmasına faktiki olaraq moratorium** qoyulub. Moratorium təşəbbüsü şəxsən Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülmüşdür.

Ölkədə **jurnalistlərə qarşı zor işlədilməsi** xüsusi ilə 2003 – cü il President seçkilərindən sonrakı 15 – 16 oktyabr kütləvi nümayişlərindən sonra baş vermişdi. Heç bir hüquq mühafizə orqanı işçisi jurnalistlərə qarşı edilən zorakılıq halları ilə əlagədar məshuliyyətə cəlb olunmamışdır. Bunun əksi olaraq, müsbət bir dəyişilik kimi, 2005 – ci ilin may ayında jurnalist polis əməkdaşı tərəfindən təhqirə və təcavüzə məruz qalarkən cavabdeh məmur adekvat şəkildə cəzalandırılmışdır.

Ölkə öz müstəqilliyini əldə edəndən sonra 1999 – cu il Kütləvi İnformasiya Vasitələri haqqında qanun, 2002 – ci il Televiziya və Radio Yayımı haqqında qanun, 2003/2004 İctimai Televiziya barədə qanun kimi bir sıra **uyğun hüquqi müddəalar** qəbul edilmişdir.

Mətbuatda ifadə olunan nəzərlərin çoxcəhətliyi, hətta fikirlərin hədsiz dərəcədə siyasiləşməsi göstərir ki, ölkə mətbuatında **pluralizm üstünlüyü ələ alıb**. Lakin, bu müxtəliflik az tirajlı, maliyyə və peşəkar baxımdan zəif olan yazılı mətbuatdan kənara çox çıxmır.

Belə bir vəziyyətdə vətəndaşlar üçün əsas informasiya mənbəyi olan televiziyanın vacibliyini yüksək qiymətləndirmək çətindir. Təəssüf ki, yeni yayım qanunları elektron mətbuatda mövcud olan vəziyyəti düzəltmədi. Özəl televiziyalar üçün yeni lisenziyalar verilmədi.

Dövlət yayımının transformasiyası yalnız 2 – ci kanala aid edildi, 1 – ci kanal hələ dövlət tərəfindən idarə olunaraq qalır. Yeni televiziya kanallarının idarəsi üçün seçilən şəxslər müstəqil olmadıqları üçün kütləvi tənqidə məruz qaldılar.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov tərəfindən təklif olunmuş dövlət – mətbuat münasibətləri üzrə treyninq layihəsinə Nümayəndənin ilkin dəstəyi 18 – 20 iyul tarixlərində Bakıda həyata keçiriləcək.

## *Redaktor Elmar Hüseynovun qətli*

Ölkənin ən tanınmış müstəqil jurnalistlərindən biri və ictimai məsələlərin araşdırmaları ilə məşğul olan yeganə jurnal - Monitorun redaktoru Elmar Hüseynov, 2 mart 2005 tarixində Bakıda öz evi qarşısında güllələnmişdir.

Ölkədə ən çox təqibə məruz qalan və bir neçə dəfə məsuliyyətə cəlb olunmuş jurnalistlərdən biri olduğu üçün onun ölümü dünya üzrə narazılığa səbəb oldu. ATƏT regionunun bir çox ölkələrinə xas olan cinayət diffamasiya qanunları sayəsində o, 2001/2 –ci illərdə Bakı meri tərəfindən qaldırılan böhtan iddiasından sonra 6 ay həbsxanada yatmışdır. 2004 – cü ilin noyabr ayında 2003 –cü ilin böhtan iddia ərizəsinə əsasən məhkəmə onun 20 000 ABŞ dollarına bərabər məbləği ödəmək üçün onun mülkiyətinin müsadirə olunması barədə hökm çıxarmışdır.

Nümayəndə və Ofisin əməkdaşları Elmar Hüseynovun ölümünə çox kədərləndilər. Nümayəndə və onun Ofisinin əməkdaşları Hüseynovu şəxsən tanıyırdılar və onun 2004 oktyabr ayında onların Ofisinin Tiflisdə keçirilən ilk Cənubi – Qafqaz Media Konfransında aktiv və peşəkar iştirakçı kimi fəaliyyəti böyük təəssürat buraxmışdır.

### *Cinayətin üstünü açmaq üçün hakimiyyətin qətiyətliliyi*

Nümayəndənin bütün rəsmi həmsöhbətləri xüsusilə vurğuladılar ki, hakimiyyət cinayət törədənləri tapmaq üçün əlindən gələni edir. “Biz bunu edəni ifşa etmək üçün əlimizdən gələni edəcəyik: əgər biz bunu etməsək bu ölkəmizə mənfi təsir göstərə bilər”, deyə President Əliyev Nümayəndəyə bildirdi.

Xarici İşlər Naziri bu məsələni daha da qabartdı: “Bu ölümün arxasında dayananları tapmaq dövlətin mövcudluğu üçün vacibdir. Bu qətl siyasi xarakter daşıyır və onun əsas məqsədi qeyri – sabitlik yaratmaqdır.”

Nümayəndənin Ədliyyə Naziri, Daxili İşlər Naziri, Baş Prokuror ilə müzakirələr və Dövlət Təhlükəsizliyi Nazir Müavini ilə bağlı qapılar arxasında keçən görüşlərində onların cinayətin arxasında dayanan motivlərlə bağlı eyni qərar, mövqe və qətiyyətdə olmaları aydın görünürdü.

Cinayətin üstünü açmaq üçün hakimiyyətin qətiyətliliyi eyni zamanda tədqiqatı dəstələmək üçün Türkiyə də daxil olmaqla, beynəlxalq expertlərin dəvət edilməsi qərarı ilə xüsusi olaraq vurğulanır.

### *Tədqiqat barədə ictimai məlumatın azliğı.*

Lap əvvəldən tədqiqat çox az dərəcədə olan şəffaflıq ilə müşayət olundu. Ictimaiyyətə mətbuatda özünə yer tapan bir sıra fərziyələr verilsə də dövlətdən heç bir fakt təqdim edilmədi.

Bu xüsusilə birinci aydan sonra “qətl hadisəsinə” “terror aktı” təsnifatı verildikdən və tədqiqatın Dövlət Təhlükəsizliyi Nazirliyi tərəfindən öz üzərinə götürməsi ilə aydın

görünürdü. Hazırda məhdud informasiya axını tamamilə dayandırılmışdır və hətta o vaxtdan mətbuatda yayılan səhf məlumatlar belə hakimiyyət tərəfindən təkzib edilməmişdir.

Cinayət işinin Dövlət Təhlükəsizlik Nazirliyinə təqdim olunmsından əvvəl Baş Prokurorluq mətbuatla əlaqədə olan məmuru təyin etmiş və ona xüsusi ilə bu məsələ ilə məşğul olmaq təlimatı vermişdir. Lakin, aprelin əvvəllərindən bu təcrübəyə son qoyulmuşdur. Artan ictimai marağı nəzərə alaraq, Nümayəndə bir neçə yüksək rütbəli məmurla görüşlər zamanı Hüseynovun işi barədə mətbuata müntəzəm məlumat verilməsi təklifini etmişdir. Məmurlar təkid etmişdirlər ki, dovlət strukturlarının yürüddükləri informasiya siyasəti tədqiqatın müvəffəqiyyətli başa çatması maraqlarına xidmət edir.

Hesabat hazırlanarkan, hakimiyyətin məsələni "həll edilmiş" elan etməsinə baxmayaraq, məlumat siyasəti dəyişdirilməmiş qalmışdır.

***Tədqiqatın bu günə olan nəticələri***

29 iyun 2005 tarixində Baş Prokuror Zakir Qaralov Hüseynovun qatillərinin hakimiyyət orqanları tərəfindən müəyyən edildiyini bəyan etdi.

Hər ikisi Gürcüstan vətəndaşı olan Teymuraz Əliyev və Tahir Xubanova "qatil" adı verildi. Qaralovun sözlərinə Azərbaycan hökuməti axtarışda yardım üçün Gürcüstan hakimiyyəti və İnterpola müraciət etmişdir. Baş Prokurorun sözlərinə görə yalnız bu iki şəxs həbs edildikdən sonra qətl hadisəsinin kim tərəfindən sifariş olunduğunu müəyyən etmək olar.

Bu bəyanatda heç bir mümkün motiv, dəlil və ya təsdiq edici fakt göstərilməmişdir.

Hüseynovun həyat yoldaşı Ruşana Hüseynova tədqiqatın son nəticələri ilə razılaşmır. "Baş Prokuror qatillər tapılmamış (hələ onu sifariş edən şəxsləri nəzərə almıram) necə deyə bilər ki, cinayətin üstü açılmışdır?"

Elmar Hüseynovun adını daşıyan Fonddan olan Şahbaz Xuduoğlu hətta Milli Təhlükəsizlik Nazirliyini hələ də tədqiqat barədə məlumatın gizlədilməsində günahlandırmış və Nazirliyi məhkəməyə verməklə hədələmişdir. Bir neçə mətbuat orqanları Xuduoğlunu və onun cəhdlərini dəstələməyə razılaşmışdırlar.

***Cinayətin təkzib edilməmiş "daxili variantları***"

Qətl hadisəsi baş verəndən sonra həm mətbuatda olan ictimai fikirlərdə, həm də Nümayəndənin səfəri zamanı danışıqlar əsnasında bir neçə digər mümkün versiyaların meydana çıxması məsələyə aydınlıq gətirmək vacibliyini daha da artırır .

Müxalifətdən tutmuş iqtidara qədər hamı Hüseynovun qətlinin şəxsi həyatı ilə bağlı olan əhəmiyyətsiz bir səbəbdən yox, onun peşəkar fəaliyyəti ilə əlaqədar, siyasi əsaslarla baş verməsi fikri ilə razılaşır. Bu baxımdan bu eyni zamanda Azərbaycan mətbuat azadlığına təcavüz və vurulan açıq zərbədir.

“Daxili cinayətkarlar” versiyaları arasında mətbuatda səslənən konkret fikirlər və fərziyələr cinayətin həbs olunmuş insan oğurluğu ilə məşğul olan, qətl baş verən zaman Daxili İşlər Nazirliyində yüksək rütbəli məmur olan Hacı Məmmədovun başçılıq etdiyi yerli banda ilə əlaqədə olması versiyası var idi. O və onun bandası Hüseynovun ölümündən üç gün sonra türk polis expert dəstəsinin köməyi ilə həbs edilmişdir.

Məmmədov bandasının Hüseynovun qatili kimi müəyyənləşdirilməsi fikri türk baş polis məmuru Ramazan Erin aprel ayında Ankarada keçirtdiyi mətbuat konfransında verdiyi bəyanat nəticəsində meydana çıxmışdır.

Mümkün əlaqə haqqında məlumat və ya təkzibin verilmədiyindən narazı qalan Nümayəndə Bakıda çalışan Türk diplomatları ilə əlaqə saxlamışdır. Vyanaya qayıdarkən Offis cənab Erin yerinə təyin olunan İsmayıl Calışkandan məsələyə aydınlıq gətirməsini istəmişdir. O, bildirmişdir ki, cənab Erin bəyanatı səhf tərcümə olunmuşdur də ya təhrif olunmuşdur və Türkiyəli ekspertlərin apardıqları tədqiqatın nəticələrinə əsasən bu iki cinayətin bir - biri ilə əlaqəsi yoxdur. Faktiki olaraq, cənab Er mətbuata bildirmişdir ki, Azərbaycan hökuməti iki müxtəlif tədqiqatda Türkiyə polisinin köməyini xahiş etmişdir: bir –biri ilə əlaqələri olmayan insan oğurluğu və Elmar Hüseynovun ölümü.

Bütün bunlara baxmayaraq, hətta heç bir “daxili” versiya təstiqlənməsədə, bütün rəsmi həmsöhbətlər tərəfindən xüsusi ilə qeyd edilən “xariclə əlaqəsi olan” və siyasi qeyri-sabitlik yaratmaq cəhdi şübhələri indiyədək sübuta yetirilməyib.

***Nə qədər ki, Elmar Hüseynovun qətlini törədən cinayətkarların real səbəbləri müəyyən edilib və məhkəmədə təstiqlənməyib ictimaiyyət işi bağlı hesab edə bilməz və təhqiqata inam təhlükə qarşısında qalacaq.***

***O vaxta qədər, Hökümət qətl hadisəsinin jurnalistikaya və media mühitinə göstərdiyi neqativ təsiri azaltmaq üçün ictimaiyyəti istintaq barədə mümkün qədər çox məlumatla təmin etməlidir.***

## *Hüseynovun ölümündən sonra böhtan iddia ərizələri üzrə təcrübi moratorium*

Azərbaycanda böhtan hallarına görə cinayət məhsuliyyəti hələ də qanuni olaraq qalır, lakin, rəsmilər tərəfindən qeyd edildiyi kimi, bu ilin mart ayından cinayət və mülki qaydada böhtan barədə jurnalist və ya mətbuat nəşrlərinə qarşı heç bir iddia ərizəsi verilməmişdir.

Bu müsbət inkişaf haqqında açıqlama Nümayəndənin Prezident ilham Əliyev ilə olan görüşündə verilmişdir. Prezident xüsusilə vurğulamışdır ki, o heç bir zaman jurnalisti məhkəmə vasitəsilə təqib etməmişdir və heç vaxt böhtana görə qəzetə qarşı iddia qaldırmayacağını və o, öz hökumətinin üzvlərini də belə etməyə çağırmışdır.

O, bu müraciəti ilk dəfə 3 mart tarixində Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının toplantısında öz nitqində səsləndirmişdir. O, jurnal redaktoru Elmar Hesynovun qətlini (bundan bir gün əvvəl baş verən) qəti şəkildə pisləmişdir. Eyni zamanda o, yüksək rütbəli hökumət rəsmilərini jurnalistlərə qarşı iddia qaldırmamağa çağırmışdır. (Məlumdur ki, Elmar Hüseynov məmurlar tərəfindən tez – tez böhtan ittihamının qurbanı olurdu.)

O vaxtdan Prezident öz müraciətini bir neçə dəfə müxtəlif tədbirlərdə təkrar etmişdir. May ayında mətbuat şirkətlərindən birinin rəhbərləri ilə görüşdə o hətta xəbərdar etmişdir ki, o, jurnalisti böhtana görə məhkəməyə verən məmuru işindən azad edəcək.

Bu hərəkətin önəmliyi keçmiş təcrübə ilə təsvir oluna bilər. Bu təcrübi moratoriuma qədər məmurlar tez – tez qəzetləri cinayət və mülki qaydada məhkəməyə verirlər. Cinayət diffamasiyası və təhqirə görə günahlandırılma hallarının sayı nisbətən az idı, lakin, mülki işlərdə isə mətbuat şirkətlərini iflasa uğratdıran cərimələr kəsilirdi.

Bir sıra parlament üzvləri böhtan müddəalarının ictimai məsələlərin azad və sərbəst müzakirəsinə mane olduğunu başa düşdükləri halda, digərləri qanunvericiliyin dəyişdirilməsinə o qədər də hazir deyillər. Milli Məclis deputatları ilə danışıqlarda Nümayəndəyə bildirildi ki, diffamasiyaya görə cinayət məhsuliyyətin saxlanılması böhtan xarakterli məqalələrin mövcudluğundan irəli gəlir.”Bu qarşısını alma tədbirləridir” deyə deputatlardan biri bildirdi.

***Böhtan və diffamasiya ilə bağlı məhkəmə işləri üzrə praktiki moratorium yalnız President Əliyevin nüfuzu sahəsində həyata keçirilir. Onun təşəbbücü yüksək qiymətləndirilən irəliləyiş olsa da moratorium ölkə siyasətçiləri arasında geniş ictimai razılığa əsaslanmalı və qanun şəklinə salınmalıdır. Növbəti addım kimi, böhtan və diffamasiyaya görə cinayət məhsuliyyəti ləğv edilməli və mülki ziyan və cərimələrin rasional həddi müəyyən edilməlidir.***

## *Jurnalistlərə qarşı zorakılıq*

15-16 oktyabr 2003 –cü il seçki sonrakı hadisələr zamanı polis və nümayişçilər arasında olan toqquşmalar və Elmar Hüseynovun qətli beynəlxalq və Azərbaycan ictimaiyyətinin diqqətini jurnalistlərə qarşı zorakılığa cəlb etdi. 2003 – cü il oktyabr nümayişlərindən sonra 70 jurnalist məmurlar tərəfindən kobud davranıldıqları üçün Mətbuat Şurasına şikayət etmişdirlər. Bu rəqəm hökumət nümayəndələri tərədfindən təsdiqlənmişdir. Mətbuat Şurasının Sədri Əflatun Amaşov Nümayəndəyə bildirmişdir ki, 70 jurnalistdən 44 –ü polis tərəfindən döyüldüklərinə görə şikayət etmişdirlər. Daxili İşlər Nazirliyi və Mətbuat Şurası tərəfindən aparılan birgə tədqiqat heç bir cinayətkarı aşkar etməmişdir. Heç bir polis işçisi daxili intizama cəlb olunmamışdır.

Buna baxmayaraq, Daxili İşlər Naziri Nümayəndə ilə görüşdə Nazirlik və mətbuat arasında münasibətlərin daha da yaxşılaşdırıla biləcəyi barədə razılaşmışdır. “Biz tənqidə qarşı səbrli olmalıyıq.” deyə Nazir Nümayəndəyə bildirib. Bu səbəbdən qeyri-rəsmi görüşlər vasitəsi ilə polis-mətbuat münasibətlərini yaxşılaşdırmağa çalışan birgə Mətbuat Şurası, DİN və digər struktrurlarla birgə komissiya yaradılıb.

Buna əlavə olaraq Nazirlik və Mətbuat Şurası nümayişləri işıqlandıran jurnalistlər üçün, onların polis tərəfindən hədəfə alınmasından çəkinmək məqsədilə, xüsusilə də bu nümayişlər zorakılığla müşayət olunursa, xüsusi jiletlərin hazırlanması haqqında razılaşmışdırlar. (Ancaq, aydın deyil kim və ya hansı agentlik, dövlət və ya qeyri-hökumət qurumu, kimin əsl jurnalist olduğunu müəyyən edəcək) Qəzetlər bu jiletlərlə təmin olunacaq, əlavə jiletlər isə Mətbuat Şurasına veriləcək.

Gündəlik rus dilli Zerkalo qəzetinin müxbiri Fərid Teymurxanlının işi bu cəhətdən yoxlama və ya test işi olmuşdur. 21 may 2005 –ci il tarixində Teymurxanlı aydın görünən "Press" sözü yazılmış rəsmi jilet geyinməsinə baxmayaraq Bakıdakı nümayişi işıqlandıran zaman təhlükəsizlik işçiləri tərəfindən amansızcasına döyülmüşdür. Lakin, ilk dəfə idiki bu hadisəyə görə məsuliyyət daşıyan polis işçisi işdən azad edilmişdir və ona həmişəlik ictimaiyyətə xidmət etmək qadağası qoyulmuşdur.

Alim Kazımlının işi isə hələ də həll olunmamış qalır. Bildirilir ki, Yeni Müsavat qəzetinin müxbiri və fotoqrafu olan Alim Kazımlı 28 dekabr 2004 tarixində Nərimanov rayon polis şöbəsinə şəxsiyyət vəsiqəsi üçün müraciət edərkən döyülmüşdür.

2005- ci il yanvar ayında Nümayəndənin işə müdaxiləsindən sonra Xarici İşlər Naziri Məmmədyarov bildirmişdir ki, tədqiqat cənab Kazımlının döyülməsi faktını təsdiq etməyib.

Alim Kazımlı hadisədən bir neçə gün sonra xəstəxanaya aparılmış və 19 iyun 2005 –ci il tarixində beyinə qan sızma nəticəsində vəfat etmişdir. Bəzi mənbələrə əsasən, onun ölümünə səbəb 28 dekabr 2004-cü il tarixində baş verənlər ola bilər.

***Bütün zorakılıq halları əsaslı şəkildə tədqiq olunmalıdır. Jurnalistin təqibində və ya döyülməsində günahlandırılan istənilən polis işçisi intizama cəlb olunmalıdır. Xüsusilə qarşıdan gələn Parlament seçkilərini nəzərə alaraq müxbirlərin, əsasən də, ictimai toplantıları işıqlandıran jurnalistlərin təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsi üçün tədbirlər görülməlidir.***

## *Yayımın vəziyyəti barədə*

Azərbaycanda həm dövlət, həm də özəl yayım şirkətləri mövcuddur. Paytaxt əhalisinin 88% - ı, paytaxtdan kənar yerlərdə əhalinin 93 % - ı televiziyanı əsas informasiya mənbəyi sayır.

Bu gün Azərbaycanda beş ümummilli televiziya və radio şirkəti fəaliyyət göstərir. Onlar həm verlişlərin istehsalçısı, həm də, yayım şirkəti kimi ölkə ərazisinin 80 % -dən çoxunu əhatə edən qurumlardır. Dövlətə məxsus AzTV – nin iki kanalı var. (Bunlardan biri hazırda ictimai yayım xidmətinə çevrilir – aşağıdakı paragrafa baxın.) Digər kanallar hüquqi cəhətdən özəl və müstəqil şirkətlər olan ANS, ATV, Lider və Space – dir. ATV-dən başqa bütün özəl kanallar satelit vasitəsilə yayımlanır.

Hazırda Azərbaycanda 12 regional televiziya və radio şirkətləri fəaliyyət göstərir: Gəncə, Quba, Naxçıvan hər birində iki şirkət, Sumqayıt, Lənkaran, Mingəçevir, Zaqatala, Tovuz və Xaçmazda hər birində bir şirkət. Bu kanalların yayım müddəti məhduddur və onların az miqdarda öz proqramları var. Bu televiziya kanalları əsasən əyləncəli proqramlar və filmlər yayımlayır.

Dövlətlər arası müqaviləyə əsasən Azərbaycanda bir neçə xarici televiziya və radio kanalları yayımlanır. Bunlar əsasən türk (TRT 1, STV, KANAL D) və Rusiya (ORT, RTR), eyni zamanda bir neçə radio stansiyalardır: BBC, Radio France İnternational, Voice of America, Europa + və uzun müddət FM tezliyi ala bilməyən Azadlıq Radiosu.

## *Özəl yayım kanalları üçün lisenziya çatışmamazlılığı*

President Əliyev özəl kanalları "bəzilərini iqtidar və bəzilərinin isə müxalifət yönümlü olduğu üçün onları bir qədər neytral" kimi xarakterizə etmişdir. Digər həmsöhbətlər onları "daha çox hökumətə loyal" bəziləri isə "siyasətdən daha çox biznes yönümlü" kanallar kimi təsvir etmişdirlər.

Bütün mövcud özəl yayım şirkətləri öz lisenziyalarını 2002 – ci ildə Televiziya və Radio Yayım haqqında qanunu qəbul edilməmişdən öncə birbaşa dövlətdən almışdırlar. Bu qanun Avropa Şurası ilə birgə hazırlanmışdır. Qanun hüquqi boşluq zamanı hökumət tərəfindən verilən lisenziyaları əvəz edilməsi məqsədilə yeni tezliklərin verilməsi üçün neytral və şəffaf mexanizm qurmalıdır.

Təəssüf ki, bu qanunun qüvvədə olmasına baxmayaraq 2002-ci ildən bəri heç bir təzə televiziya lisenziyası verilməyib.

Bu problemlə məşğul olmaq üçün ATƏT – in Bakı Ofisi Nümayəndənin iştirakı ilə lisenziyalaın verilməsi də tezliklərin ayrılmasına dair bir günlük dəyirmi masa təşkil etmişdir. Aydın oldu ki, bu məsələ ilə bağlı bir sıra cavablandırılmamış suallar var.

Dəyirmi masa zamanı hətta President Apparatının kütləvi informasiya vasitələri ilə məşğul olan İctimai-Siyası Şöbəsinin Rəisi Əli Həsənov mövcud hüquqi çərçivədə bir çox ziddiyyətlərin olduğunu qəbul etdi. O razilaşdı ki, lisenziyalaşdırma prosesini ləngidən həmin bu hüquqi çatışmamazlıqlar olmuşdur.

Dəyirmi masa zamanı edilən bəyanatlardan aydın oldu ki, yeni lisenziyaların ayrılmaması sadəcə texniki problem deyil. Texniki cəhətdən Amerikanın QHT –si İREX yekunlaşdırılması avqusta nəzərdə tutulan tezlik xəritəsini hazırlayır. Buna baxmayaraq bəzi expertlər qeyd etmişlər ki, bəzi yayım şirkətlərinin bağlanması nəticəsində artıq bir neçə müstəqil tezlik əldə edilmişdir, lakin, bunlardan hələ istifadə olunmur.

Əsas problem budur ki, 11 oktyabr 2002 – ci ildə Televiziya və Radio yayımı haqqında qanunun qüvvəyə minməsindən sonra Prezident tərəfindən digər qanuna imza atdı: Milli Televiziya və Radio Şurasının Nizamnaməsinin quvvəyə minməsi haqqında qərar. Əslində lisenziyaların verilməsi Şuranın vəzifəsi olmalıdır.

Şura Prezident tərəfindən təyin edilmiş doqquz üzvdən ibarətdir. Üzvlərin təyin olumasında konkret meyarların olmaması, Prezidentin bu prosesdə iştirakı Şuranın işinin müstəqqilliyini şübhə altına alır.

Ədliyyə və İqtisadi İnkişaf Nazirliyi, Rabitə Nazirliyi, Nazirlər Kabinetinin Tezliklər üzrə Kommitəsi (Müdafiə, Səhiyyə və Milli Təhlükəsizlik Nazirliklərinin nümayəndələrindən ibarət) kimi digər qurumlar da lisenziya verilməsi prosesində iştirak edirlər. Belə çox qurum tərəfindən idarə olunan proses yayım şirkətləri üçün lisenziya alınmasını qeyri mümkün edir.

Bir neçə qurum tərəfindən idarə olunan struktur, potensial siyasi əsasları (dəyirmi masa zamanı tez-tez qeyd edilən) hər bir zaman aydın olmayan texniki şərtlərlə izah edə bilər. Mətbuat ekspertlərindən birinin göstərdiyi kimi, "Bu hüquqi yox, siyasi problemdir, müstəqil televiziyanın yaradılmasına istək də siyasi iradə yoxdur."

Dəyirmi Masa zamanı Həsənovun etdiyi təqdimata əsasən bu ilin əvvəlində Nazirlər Kabinetinə Prezident tərəfindən lisenziyalaşdırma yolunda olan çətinliklərin aradan qaldırılması üzrə göstəriş verilsədə qurum bunu etməyə nail olmamışlar.

Təkbətək görüşdə Əli Həsənov Nümayəndəyə bildirdi ki, o, 2005 noyabr seçkilərinə qədər heç bir yeni lisenziyanın verilməsini gözləmir.

***Yeni, müstəqil, özəl yayım şirkətləri üçün lisenziyalaşdırma məqsədilə adekvat hüquqi və təsis edilmiş çərçivə mümkün qədər tez yaradılmalıdır. Ölkənin Milli Televiziya və Yayım Şurası daha müstəqil olmalıdır və onun vəzifələri daha dəqiq müəyyənləşdirilməlidir. Ona xüsusi büdcə ayrılmalıdır. Tezlik xəritəsi mümkün qədər tez hazırlanmalıdır. Qarşıdan gələn Parlament seçkilərini nəzərə alaraq lisenziya almağa çalışan yeni yayım şirkətlərinə ən azı hal hazırda açıq olan tezliklər müsabiqə yolu ilə təqdim olunmalıdır.***

## *Dövlətə məxsus olan 2-ci kanalın ictimai İTV – yə mübahisəli transformasiyası*

2005 – ci ildə İTV kimi tanınan ictimai yayım şirkəti dövlətə məxsus 2-ci kanalın əsasında yaradılmışdır. (Bax, 1-ci kanalın aqibətini haqqındakı alt paraqraf)

Nümayəndə ilə görüşdə president Əliyev də daxil olmaqla bütün hakim məmurlar bunu “müsbət inkişaf” kimi təsvir edərək bu əhəmiyyətli addımı yüksək qiymətləndirmişdirlər.

Buna baxmayaraq, İTV – yə yeni Baş Direktorun təyin edilməsi dövlət televiziyasının ictimai televiziyaya çevrilməsini tələb edənləri məyus etdi.

İsmayıl Ömərov 16 aprel tarixində mümkün doqquz səsdən altısını toplayaraq İTV idarə heyəti tərəfindən kanalın direktoru vəzifəsinə seçilmişdir. O, dövlət tərəfindən idarə olunan televiziyada jurnalist kimi tez – tez Azərbaycan müxalifətini dövlət xəyanətində günahlandırdığı üçün bu vəzifə üçün ziddiyyətli şəxs hesab edilir.

Siyasi partiyalar, QHT, və mətbuatdan təqribən 30 nümayəndə 20 aprel tarixdə əsas məqsədi həqiqi müstəqil ictimai yayımın yaradılması üçün təşviqat aparmaq olacaq Ellik Televiziya (İctimai Televiziya) adlı hərəkatın təsis iclasında iştirak etdilər.

Azərbaycan İctimai Televiziya və Radio Kompaniyasının Yayım Şurasının sədri cənab Cahangir Məmmədlinin söylədiklərinə əsasən İctimai Televiziya cari ilin avqust ayında işə başlayacaq. Digər tərəfdən, Cahangir Məmmədli ictimai kanal üçün hökümət tərəfindən ayrılan 30 milyon ABŞ dollarının kifayət qədər olmadığını vurğuladı. İT-nin tam işlək olması üçün ən azı 30 milyon ABŞ dolları lazımdır.

### *1 Kanal dövlət Televiziyası olaraq qalmaqdadır*

AzTV-nin maliyyə baxımından daha zəif olan kanalı, Dövlət Televiziyasının 2 Kanalının ictimai TV-ya çevrilməsi ziddiyətlidir. Prezidentin 2005-ci il mart fərmanının ardınca dövlət televiziyasının daha dəyərli və texnoloji baxımdan daha yaxşı təçhizatlı 1 Kanalı dövlətə məxsus olaraq qalacaqdır.

Kanalın birgə səhmdar cəmiyyətə çevriləcəyi və onun səhmlərinin 49 faizinin özəlləşdiriləcəyinə (media qanunlarına deyil, eyni fərmana əsaslanaraq) baxmayaraq bu belədir.

Belə yolla, ölkədə həm "dövlət" və həmçinin "ictimai" kanalın olduğu qeyri-adi vəziyyət yarandı. Prezidentin Aparatından Əli Həsənova əsasən, AzTV-nin 1-ci Kanalı diqqətini Azərbaycanın mədəniyyəti və adət-ənənələrini yüksəltməyə yönəldəcək, lakin eyni zamanda 1-ci Kanalın cəmiyyətdə baş verənlərə müxtəlif nöqteyi nəzərlərə açıq olması üçün səylər göstəriləcəkdir.

***İTV-nin tam müstəqil olması üçün, Hökümət Baş Direktorun müəyyən edilməsi üçün yeni seçkiləri keçirməlidir və yeni televiziya stansiyası üçün Hökümətin tam dəstəyi təmin olunmalıdır. 1 Kanal da ictimai Televiziyaya çevrilməlidir. Irəlidə gələn seçki kampaniyalasının qərəzsiz işıqlandırılması üçün keçmiş 2 Kanal - İTV –nin mümkün qədər tez yayımlanması vacibdir.***

## *Mətbuatın vəziyyəti barədə*

Ölkənin televiziya aləminin hökumətə tərəf yönəldiyini nəzərə alına bilindiyinə baxmayaraq, mətbuat aləmi müxtəlifdir və müxalifət orada təmsil olunur. Bu mətbuatı həqiqi tarazlı qüvvə etmir, lakin, bu onun zəif maliyyəli və daha kiçik auditoriyanı əhatə etməsi ilə izah edilir.

2004-cü ilin məlumatlarına əsasən Azərbaycanda 600 çox qəzet və 100 çox jurnal dərc olunmuşdur. Lakin, onların yarısından çoxu ya ləğv edilmiş və yaxud heç bir zaman çap olunmamışdır. Müxalifət yönümlü qəzetlər daha geniş tiraja malikdir, onların gündəlik tirajı 2003-cü il prezident seçkilərindən əvvəl 35,000-45,000 nüsxədə çap olunmuş və bu rəqəm 2004-2005-ci illərdə 10,000-12,000 qədər azaldılmışdır. Hökümət qəzetlərinin tirajı təqribən 7-8000 nüsxədir.

Çap mətbuatın təqribən 15%-i hökümətə və təqribən 35%-i siyasi partiyalara məxsusdur. Mətbuatın qalan digər faizi nisbətən müstəqildir, ancaq, iqtisadi zəiflik və maliyyə asılılığı üzündən onların tam çoxluğunun müstəqilliyi şərti xarakter daşıyır.

Ümumiyyətlə, bütün mətbuat siyasi və yaxud iqtisadi olmasından asılı olmayaraq, bu və ya digər maraqlı qruplara bölünmüşdür. Mərhum Hüseynov tərəfindən çap olunan *Monitor* jurnalından başqa bütün digər nəşrlər hər hansı bir peşəkarlıqdan geri qalmaları ilə tənqid olunurlar.

Etik və peşəkarlıq məsələləri ilə məşğul olan Mətbuat Şurası iki il əvvəl yaradılmışdır. Nümayəndənin Şuranın sədri Əflatun Amaşovla görüşü zamanı, o, 190 nəşr orqanın artıq Mətbuat Şurasının üzvü olduğunu bildirmişdir. Lakin o, eləcədə, Şuranın artıq iki il fəaliyyət göstərməsinə baxmayaraq, mətbuatın keyfiyyətinin yaxşılaşmadığını vurğulamışdır.

Mətbuat Şurasının məşgul olduğu digər məsələlərdən biri Bakı şəhər metropolitenində müstəqil qəzetlərin satışına qoyulan qadağa olmuşdur. Bu məsələ, Şuranın sədrinin Prezidentlə müraciyətindən sonra dərhal öz həllini tapmışdır.

***Mətbuatın ictimaiyyət üçün həqiqi müstəqil məlumat mənbəyi olmamasının səbəblərindən biri maliyyə vəsaitinin çatışmamazlığı və tirajın aşağı olmasıdır. Qərəzsizlik əsaslı reklam bazarının inkişaf etdiyi təqdirdə biznes marağına çevrilə bilər. Buna yardım etmək üçün hökümət öz qəzetlərinin özəlləşdirilməsinə başlamalıdır. Mətbu jurnalistlərə treninq və texniki dəstək lazımdır ki, bu da beynəlxalq təşkilatlar və donorlar tərəfindən təmin oluna bilərdi.***

## *İnformasiyaya çatım*

Hazırda, İnformasiyaya Çatım haqqında qanun layihəsi (İnformasiya Almaq haqqında qanun kimi tanınan) Milli Məclisin aprel-iyun sessiyasında birinci oxunuşdan keçmişdir. Hazırki məzmun rəsmi qanun layihəsini təkmilləşdirməkdə təqdirə layiq proqres əldə etmişdir. Hazırda mövcud olan layihə, Avropa Şurası və Nümayəndənin Ofisi tərəfindən edilən bir çox tövsiyələri özündə cəmləşdirir. Məlumat azadlığının başlıca prinsipləri aşağıdakılardan ibarətdir:

- Hökümətdə şəffaflıq prinsipi;
- Dövlət sirrlərinə müstəqil baxış mexanizmi üçün zəmanət (Məlumat Ombudsmanı üçün şərt);
- Ictimai maraq doquran məlumatların çap edilməsi vəzifəsi;
- "xəbərçilərin", ictimai maraq kəsb edən məlumatlar haqqında mətbuatı məlumatlandıran şəxslər"in müdafiəsi;

İkinci oxunuş hazırlanır və 2005-ci ilin sonunda keçirilməsi gözlənilir. Nümayəndə bu oxunuşlarda iştirak etməyə dəvət olunub.

***İnformasiyaya Çatım haqqında qanun layihəsi ictimaiyyət üçün açıq olmalıdır; qanunvericilik prosesi şəffaf olmalı və prosesə mətbuat, QHT və müstəqil ekspertlər kimi maraqlı tərəflər cəlb olunmalıdırlar; qanun noyabr ayında keçiriləcək parlament seçkilərindən əvvəl qəbul edilməlidir.***

## *Hökumət Mətbuat İşçiləri və Jurnalistlər üçün Treninq*

Xarici İşlər Naziri, Elmar Məmmədyarovun təklifinin ardınca, Nümayəndənin Ofisi hökumət mətbuat işçiləri üçün seminar hazırladı. Bu layihə Nümayəndənin görüşdüyü bütün rəsmilər tərəfindən xoş qarşılandı və o, iyul ayının 18-dən 20-inə qədər Bakıda keçiriləcəkdir.

Seminar iştirakçıları həm dövlət strukturlarının mətbuat və həmçinin jurnalistlərdən ibarət olacaqdır. Tədbir iştirakçıları aşağıda göstərilən mövzular üzrə yeni məlumatlarla təmin olunacaqlar:

- Müvafiq beynəlxaq təcrübələrə dair qısa məlumat;
- Mətbuat ofisini necə effektiv idarə etməyə dair vasitərlər;
- Demokratik hökümət kommunikasiya strategiyaları;
- Jurnalistlərlə birgə işləməyin peşəkar yolları və hüquqi əsasları;
- Rəsmilərlə birgə işləməyin peşəkar jurnalistik prinsipləri;
- Məlumata çatım və "ictimaiyyətin bilmək hüququ"na dair müvafiq hüquqi müddəalara dair məlumat.

## *Səfərin mətbuatda işıqlandırılması*

Nümayəndə səfərinin həm hökümət və həmçinin qeyri-hökumət mətbuatında geniş işıqlandırılmasını alqışladı. O bir sıra hallarda aparıcı televiziya stansiyalarına müsahibə vermiş və keçirdiyi görüşlərin bir çöxu ayrıca işıqlandırılmışdır. Bu nümayəndənin 2004-cü il mart ayında Ofisə rəhbərlik etməyə başlamasından indiyə qədər keçirdiyi görüşlərin ən yaxşı işıqlandırılması idi.

## *Tövsiyələr*

- ***Nə qədər ki, Elmar Hüseynovun qətlini törədən cinayətkarların real səbəbləri müəyyən edilib və məhləmədə təstiqlənməyib ictimaiyyət işi bağlı hesab edə bilməz və tədqiqata inam təhlükə qarşısında qalır.***

- ***O vaxta qədər, Hökümət qətl hadisəsinin jurnalistikaya və media mühitinə göstərdiyi neqativ təsiri azaltmaq üçün ictimaiyyəti istintaq barədə mümkün qədər çox məlumatla təmin etməlidir.***

- ***Böhtan və diffamasiya ilə bağlı məhkəmə işləri üzrə praktiki moratorium yalnız President Əliyevin nüfuzu sahəsində həyata keçirilir. Onun təşəbbücü yüksək qiymətləndirilən irəliləyiş olsa da moratorium ölkə siyasətçiləri arasında geniş ictimai razılığa əsaslanmalı və qanun şəklinə salınmalıdır. Növbəti addım kimi, böhtan və diffamasiyaya görə cinayət məhsuliyyəti ləğv edilməli və mülki ziyan və cərimələrin rasional həddi müəyyən edilməlidir.***

- ***Bütün zorakılıq halları əsaslı şəkildə tədqiq olunmalıdır. Jurnalistin təqibində və ya döyülməsində günahlandırılan istənilən polis işçisi intizama cəlb olunmalıdır. Xüsusilə qarşıdan gələn Parlament seçkilərini nəzərə alaraq müxbirlərin, əsasən də, ictimai toplantıları işıqlandıran jurnalistlərin təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsi üçün tədbirlər görülməlidir.***

- ***Yeni, müstəqil, özəl yayım şirkətləri üçün lisenziyalaşdırma məqsədilə adekvat hüquqi və təsis edilmiş çərçivə mümkün qədər tez yaradılmalıdır. Ölkənin Milli Televiziya və Yayım Şurası daha müstəqil olmalıdır və onun vəzifələri daha dəqiq müəyyənləşdirilməlidir. Ona xüsusi büdcə ayrılmalıdır. Tezlik xəritəsi mümkün qədər tez hazırlanmalıdır. Qarşıdan gələn Parlament seçkilərini nəzərə alaraq lisenziya almağa çalışan yeni yayım şirkətlərinə ən azı hal hazırda açıq olan tezliklər müsabiqə yolu ilə təqdim olunmalıdır.***

- ***İTV-nin tam müstəqil olması üçün, Hökümət Baş Direktorun müəyyən edilməsi üçün yeni seçkiləri keçirməlidir və yeni televiziya stansiyası üçün Hökümətin tam dəstəyi təmin olunmalıdır. 1 Kanal da ictimai Televiziyaya çevrilməlidir. Irəlidə gələn seçki kampaniyalasının qərəzsiz işıqlandırılması üçün keçmiş 2 Kanal - İTV –nin mümkün qədər tez yayımlanması vacibdir.***

- ***Mətbuatın ictimaiyyət üçün həqiqi müstəqil məlumat mənbəyi olmamasının səbəblərindən biri maliyyə vəsaitinin çatışmamazlığı və tirajın aşağı olmasıdır. Qərəzsizlik əsaslı reklam bazarının inkişaf etdiyi təqdirdə biznes marağına çevrilə bilər. Buna yardım etmək üçün hökümət öz qəzetlərinin özəlləşdirilməsinə başlamalıdır. Mətbu jurnalistlərə treninq və texniki dəstək lazımdır ki, bu da beynəlxalq təşkilatlar və donorlar tərəfindən təmin oluna bilərdi.***

- ***İnformasiyaya Çatım haqqında qanun layihəsi ictimaiyyət üçün açıq olmalıdır; qanunvericilik prosesi şəffaf olmalı və prosesə mətbuat, QHT və müstəqil ekspertlər kimi maraqlı tərəflər cəlb olunmalıdırlar; qanun noyabr ayında keçiriləcək parlament seçkilərindən əvvəl qəbul edilməlidir.***